

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 18 (23.905)

*28 yanvar 2022-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qeyd edək ki, Tədris və Xidmət Kompleksi 2020-2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib.



## “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi” haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, aqrar sahədə elektron xidmətlərin tətbiqi və elektron informasiya sisteminin yaradılması məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi” haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı” elektron informasiya sisteminin fəaliyyətinin təşkili və təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görsün.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti, Dövlət Baytarlıq Xidməti, Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsi və rayon (şəhər) icra hakimiyyətləri “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi”ni zəruri məlumatlarla təmin etsinlər.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 yanvar 2022-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 27 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi” haqqında ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi” haqqında Əsasnamə” (bundan sonra - Əsasnamə) “Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi”nin (bundan sonra - sistem), fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistemin fəaliyyətinin təşkilini, idarə olunmasını və təkmilləşdirilməsini Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (bundan sonra - operator) həyata keçirir.

1.3. Sistem kənd təsərrüfatı sahəsində xidmətlərin göstərilməsini və bu məqsədlə informasiyanın yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasını, statistik məlumatların və proqnozların çıxarılmasını təmin edir.

1.4. Sistemdə fərdi məlumatların toplanılması və işlənilməsi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

1.5. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsindən ayrılan vəsait və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Sistemdə həyata keçirilən elektron xidmətlərə görə ödəniş və həmin elektron xidmətlərə görə dövlət rüsumundan azadolmalar qanunvericiliyə əsasən müəyyən olunur.

### 2. Sistemin fəaliyyət prinsipləri

2.1. Sistemin fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.1.1. məlumat mübadiləsinin, eləcə də istifadəçilərin sistemdən istifadəsinin rahat və əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.1.2. aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq sistemin fəaliyyətinin fasiləsiz həyata keçirilməsi;

2.1.3. xidmətlərin göstərilməsinin və məlumat mübadiləsinin ən qısa müddətdə həyata keçirilməsi, aşkarlığın və hesabatlılığın təmin edilməsi.

### 3. Sistemin strukturu

3.1. Sistemin strukturuna aşağıdakı altsistemlər daxildir:

3.1.1. “kənd təsərrüfatı subyektlərinin qeydiyyatı” altsistemi;

3.1.2. “subsidiyalar” altsistemi;

3.1.3. “heyvandarlıq və süni mayalanma” altsistemi;

3.1.4. “işin idarə olunması” altsistemi;

3.1.5. “əkinlərin planlaşdırılması və məlumatlandırma” altsistemi;

3.1.6. “təhlil və hesabat” altsistemi.

3.2. Sistemin strukturuna daxil olan altsistemlər vasitəsilə aşağıdakılar təmin edilir:

3.2.1. “kənd təsərrüfatı subyektlərinin qeydiyyatı” altsistemi vasitəsilə fermerlərin, təchizatçıların və tədarükçülərin, habelə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən digər subyektlərin qeydiyyatının aparılması, onların fəaliyyəti üzrə tələb olunan məlumatların və sənədlərin daxil edilməsi, ailə-kəndli təsərrüfatı üzvlərinə vəsiqələrin təqdim edilməsi;

3.2.2. “subsidiyalar” altsistemi vasitəsilə subsidiyaların verilməsinə dair kənd təsərrüfatı məhsulları istehsalçılarının müraciətlərinin qəbulu, üzləşdirilməsi və istehsalçıların məlumatlandırılması;

3.2.3. “heyvandarlıq və süni mayalanma” altsistemi vasitəsilə heyvanların və heyvan qruplarının, o cümlədən arı ailələrinin qeydiyyatının aparılması, onların hərəkətlərinin izlənilməsi, mənşəyinin, təsərrüfat əhəmiyyətinin və istifadə təyinatının müəyyənləşdirilməsi, heyvanların xəstəlik tarixçəsinin, vaksinasiyasının və digər məlumatların qeydiyyatının aparılması, habelə heyvanların süni mayalandırılması işinin təşkili;

3.2.4. “işin idarə olunması” altsistemi vasitəsilə məlumatların toplanılması, emalı, saxlanılması və qiymətləndirilməsi, müraciətlərə baxılması və cavablandırılması, daxil edilmiş sənədlərin surətlərinin avtomatik oxunması;

3.2.5. “əkinlərin planlaşdırılması və məlumatlandırma” altsistemi vasitəsilə kənd təsərrüfatı bitkilərinin növləri üzrə əkin proqnozlarının hazırlanması və müvafiq proqnoz məlumatlarının fermerlərə çatdırılması, istifadəçilərə məlumat xarakterli elektron bildirişlərin göndərilməsi və göndərilən bildirişlərin qeydiyyatının aparılması;

3.2.6. “təhlil və hesabat” altsistemi vasitəsilə bir neçə mənbədən əldə edilmiş məlumatların təhlili, subsidiyaların verilməsi zamanı həmin məlumatların üzləşdirilməsi, üzləşdirmə zamanı aşkar edilən uyğunsuzluqların hesabatlarda öz əksini tapması, müxtəlif parametrlərə görə hesabatların alınması.

### 4. Sistemin texniki infrastrukturu

4.1. Sistemin texniki infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

4.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

4.1.2. telekommunikasiya kanalları;

4.1.3. əsas və ehtiyat mərkəzləri;

4.1.4. ödəniş modulu;

4.1.5. informasiya ehtiyatı və onu idarəetmə paneli;

4.1.6. sistemin test mühiti.

4.2. Sistem istifadəçilərin identikləşdirilməsi və göstərilən xidmətlərin dəqiq və ünvanlı həyata keçirilməsi məqsədilə Vahid Giriş Sistemi ilə təchiz olunur.

### 5. Sistemə daxil edilən və ötürülən məlumatlar

5.1. Sistemə daxil edilən, habelə dövlət qurumları tərəfindən sistemə ötürülən məlumatlar aşağıdakılardır:

5.1.1. fermerlərin, tədarükçülərin və təchizatçıların aşağıdakı məlumatları:

1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, qeydiyyat ünvanı və fərdi identifikasiya nömrəsi;

2. hüquqi şəxs olduqda - tam adı, qanuni təmsilçilərinin soyadı, adı və atasının adı, hüquqi ünvanı və hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alınması ilə bağlı digər məlumatlar;

3. VÖEN-i (olduğu halda) və vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar;

4. fəaliyyət istiqamətləri və əlaqə vasitələri;

5. əcnəbi və vətəndaşlığı olmayan şəxs olduqda - sərhədkeçmə sənədi üzrə məlumatlar.

5.1.2. torpaq sahələrinin, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dövlət torpaq kadastrı məlumatları, identikləşdirmə nömrəsi və iqtisadi qiymətləndirilməsi barədə məlumatlar;

5.1.3. ünvan məlumatları;

5.1.4. ortofoto planlar, inzibati ərazi vahidlərinin və bələdiyyə torpaqlarının sərhədləri barədə məlumatlar;

5.1.5. torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi barədə məlumatlar;

5.1.6. kənd təsərrüfatı məqsədləri üçün istifadə edilən daşınmaz əmlak (torpaq sahələri, tikili və qurğular), həmin daşınmaz əmlak üzərində qeydiyyata alınmış hüquqlar, hüquqların yüklülüyü (məhdudlaşdırılması), hüquq sahibləri;

5.1.7. su kadastrı məlumatları, suvarılan torpaq sahələri, meliorasiya və irriqasiya (suvarma) sistemləri, şorlaşma və şorakətləşmə vəziyyəti barədə məlumatlar;

*Ardı 2-ci səhifədə*

5.1.8. ixtisaslaşmanın aparılması üçün tələb olunan aqroiqlim və hidrometeoroloji məlumatlar;

5.1.9. aparılmış notariat hərəkətləri barədə sənədlərə dair məlumatlar;

5.1.10. lizinqə verilmiş kənd təsərrüfatı istehsal vasitələri (kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, damazlıq heyvanlar, suvarma sistemləri dəsti və avadanlığı) barədə məlumatlar;

5.1.11. qeydiyyata alınmış kənd təsərrüfatı texnikasının növü, tipi, markası, modeli, mühərrik gücü, şassi nömrəsi, təkərin növü, reyestr nömrəsi, dövlət qeydiyyat nişanı, istehsal olunduğu ölkə və zavod, zavod nömrəsi, texniki baxış vəziyyəti barədə məlumatlar;

5.1.12. muxtar respublikanın şəhər və rayonları üzrə ötən illərdə əkilmiş və növbəti illərdə əkilməsi planlaşdırılan kənd təsərrüfatı bitkiləri, habelə əkilməsi nəzərdə tutulan torpaq sahələri barədə məlumatlar;

5.1.13. subsidiyaların verilməsi ilə bağlı qayda və təlimatlar;

5.1.14. kənd təsərrüfatı heyvanlarının və arı ailələrinin (pətəklərin) identikləşdirilməsi üçün istifadə edilən məlumat və göstəricilər;

5.1.15. kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların, ehtiyat hissələrinin, mineral gübrələrin, pestisidlərin, damazlıq mal-qaranın alınması, onların hüquqi və fiziki şəxslərə satılması və lizinqə verilməsi ilə bağlı məlumatlar;

5.1.16. istehsalı, idxalı və satışı həyata keçirilən kənd təsərrüfatı istehsal vasitələrinin və məhsullarının növləri və miqdarı (qaimə-faktura məlumatları), habelə idxalı həyata keçirilən kənd təsərrüfatı istehsal vasitələrinin və məhsullarının bəyannamələri üzrə məlumatlar;

5.1.17. nəqliyyat və mühəndis-texniki infrastruktur barədə məlumatlar;

5.1.18. hidroqrafik şəbəkə (hidroloji struktur), o cümlədən su ehtiyatları barədə məlumatlar;

5.1.19. meşə zolaqları və təsərrüfatdaxili yollar barədə məlumatlar;

5.1.20. heyvanların, o cümlədən arıların müayinəsi, müalicəsi və heyvan xəstəliklərinin profilaktikası barədə məlumatlar;

5.1.21. yeniliyə görə ekspertiza, habelə fərqliliyə, oxşarlığa və sabitliyə görə sınaq nəticələri əsasında qeydiyyata alınmış bitki sortları barədə məlumatlar;

5.1.22. seleksiya nailiyyətlərindən istifadə üçün bağlanmış lisenziya müqavilələri barədə məlumatlar;

5.1.23. kənd təsərrüfatı məhsullarının yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə məlumatlar;

5.1.24. uçota alınmış ailə-kəndli təsərrüfatı üzvlərinə vəsiqələrin təqdim edilməsi barədə məlumatlar.

5.2. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

5.3. Sistem ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlərin (məlumatların) sistemə daxil edilməsi əllə həyata keçirilir.

**6. Operatorun funksiyaları**

6.1. Operator aşağıdakı funksiyaları həyata keçirir:

6.1.1. sistemin fəaliyyətinin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. sistemdə olan məlumatların mühafizəsi məqsədilə aşağıdakı tədbirləri həyata keçirmək:

1. məlumatlara icazəsiz girişin qarşısını almaq;

2. məlumatlara giriş qaydalarının pozulması ilə bağlı xəbərdarlıq etmək;

3. proqram-texniki vasitələrin fəaliyyətini poza biləcək təsirlərin qarşısını almaq;

4. icazəsiz giriş nəticəsində dəyişdirilmiş və ya məhv edilmiş məlumatların dərhal bərpası imkanını təmin etmək;

5. məlumatların mühafizə səviyyəsini müəyyən etmək;

6. məlumatlara giriş hüquqlarını müəyyən etmək;

7. sistem proqramlarının, tətbiqi proqramların və informasiya ehtiyatlarının mütəmadi yenilənən ehtiyatının saxlanılmasını təmin etmək.

6.1.3. sistemdə aparılan təmir və yenilənmə işləri haqqında istifadəçiləri və Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyini qabaqcadan məlumatlandırmaq;

6.1.4. sistemin dövri olaraq tam monitorinqini həyata keçirmək.

**7. Sistemdən istifadə**

7.1. İstifadəçilər sistemdə qeydiyyatdan keçərək elektron kabinet yaratmaq və kənd təsərrüfatı sahəsində xidmətlər üzrə müraciət etməklə aşağıdakı imkanlara malikdirlər:

7.1.1. fermer:

1. təsərrüfatları (əkin sahələri, heyvanları və sair) haqqında məlumatları daxil etmək;

2. kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin təyinatı üzrə istifadə vəziyyəti və istehsal etdikləri kənd təsərrüfatı məhsulları haqqında məlumatları daxil etmək;

3. barəsində toplanan məlumatlarla razılaşmadıqda müraciət etmək;

4. qayda və təlimatlarla bağlı məlumatlar əldə etmək;

5. Sistemdə qeydiyyatdan keçən süni mayalanma mütəxəssisi və baytar həkimi haqqında məlumatları əldə etmək, habelə onlara müraciət etmək;

6. kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün təchizatçıya elektron qaydada müraciət etmək;

7. kənd təsərrüfatı məhsullarını yetişdirdiyi istixanalar barədə məlumatları sistemdə müəyyən edilmiş hesabat forması üzrə daxil etmək;

7.1.2. təchizatçı:

1. kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin təyinatı üzrə istifadə vəziyyəti və istehsal etdikləri kənd təsərrüfatı məhsulları, kənd təsərrüfatı istehsal vasitələri ilə bağlı apardıqları əməliyyatlar haqqında məlumatları daxil etmək;

2. barəsində toplanan məlumatlarla razılaşmadıqda müraciət etmək;

3. qayda və təlimatlarla bağlı məlumatlar əldə etmək;

4. toxum və ting əkinlərinin aprobasiyası ilə bağlı müraciət etmək;

5. istehsal etdiyi toxum və (ya) ting üzrə sertifikat almaq üçün müraciət etmək;

6. fermerdən daxil olan müraciətləri təsdiqləmək və ya bundan imtina etmək;

7. işçilərinə sistemdə əməliyyat aparmaq üçün səlahiyyət vermək;

8. apardığı əməliyyatlar, habelə daxil etdiyi sənədlər (məlumatlar) üzrə müxtəlif parametrlərə görə hesabatlar almaq;

7.1.3. tədarükçü:

1. fermerdən aldığı məhsullar barədə sənədləri (məlumatları) daxil etmək;

2. hər hansı kənd təsərrüfatı fəaliyyət sahəsi üzrə şikayət etmək;

3. qayda və təlimatlarla bağlı məlumatlar əldə etmək;

4. fermerin şikayətinə əsasən daxil etdiyi məlumatlarda düzəliş və ya həmin düzəlişdən imtina (əsas göstərilməklə) etmək;

5. apardığı əməliyyatlar, habelə daxil etdiyi sənədlər (məlumatlar) üzrə müxtəlif parametrlərə görə hesabatlar almaq;

6. fermerdən tədarük etdiyi məhsulları saxlamaq üçün istifadə etdiyi soyuducu anbarlar və taxıl elevatorları barədə məlumatları sistemdə müəyyən edilmiş hesabat formasına uyğun olaraq daxil etmək;

7.1.4. baytar həkimi:

doğulmuş heyvanın sağlamlığı haqqında sənədləri (məlumatları) daxil etmək;

7.1.5. süni mayalanma mütəxəssisi:

mayalandırılan heyvan haqqında sənədləri (məlumatları) daxil etmək;

7.1.6. yerli özünüidarəetmə orqanı:

uçota alınmış ailə kəndli təsərrüfatı üzvlərinin statusu, əmək fəaliyyəti və əmək stajı barədə məlumatları daxil etmək.

7.2. Sistemdən istifadə Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra yaradılan elektron kabinetlər vasitəsilə həyata keçirilir.

7.3. İstifadəçilər identikləşdirildikdən sonra elektron kabinetlərində açıq sənədlərlə, habelə özlərinə aid sənədlərlə tanış ola və onları çap edə bilərlər, habelə həmin sənədlərin elektron variantlarını əldə edə, elektron xidmətlərdən istifadə edə, ödənişlər və digər əməliyyatlar həyata keçirə bilərlər.

7.4. İstifadəçilər, həmçinin sistemdə yaradılan elektron kabinetləri vasitəsilə özləri haqqında toplanan məlumatlarda dəyişiklik olunmasını təklif edə, habelə həmin məlumatlardan istifadə olunması barədə məlumatları (qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla) əldə edə bilərlər.

7.5. İstifadəçilərin elektron kabinetlərində özləri barədə olan məlumatlarda etdikləri dəyişikliklər, aidiyyəti dövlət qurumlarının münasibət bildirməsi üçün, sistem tərəfindən real vaxt rejimində həmin qurumlara göndərilir.

7.6. Bu Əsasnamənin 5-ci hissəsində qeyd edilən sənədlər istifadəçilərin sistemə daxil etdikləri məlumatlar əsasında, belə məlumatlar daxil edilmədikdə isə dövlət qurumları tərəfindən sistemə ötürülən məlumatlar əsasında istifadəçilərə göndərilir.

7.7. Bu Əsasnamənin 5-ci hissəsində qeyd edilən sənədlər sistemə daxil olduqda həmin sənədlər sistem tərəfindən real vaxt rejimində istifadəçilərin elektron kabinetlərində yerləşdirilir (yerləşdirilmə vaxtı göstərilməklə) və bu barədə onların elektron ünvanlarına məlumatlar göndərilir.

7.8. Operator istifadəçinin sistemin məlumatlarına giriş hüquqlarını aşağıdakı hallarda məhdudlaşdırır:

7.8.1. sistemə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

7.8.2. bu Əsasnamədə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

## Məktəblilər arasında mikrobitlə hazırlanan "Mancanaq robot" müsabiqəsi keçirilib



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublika məktəbliləri arasında STEAM layihələrindən ibarət növbəti "Mancanaq robot" müsabiqəsi keçirilib.***

Müsabiqədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov STEAM təhsilinin muxtar respublikada tətbiqi ilə bağlı görülən işlər haqqında danışıb.

Qeyd olunub ki, STEAM təhsil metodunun tətbiqinə başlandığı gündən bu sahədə peşəkar mütəxəssislərin hazırlığı diqqətdə saxlanılıb, ilkin olaraq STEAM təhsilinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə STEAM təlimlərinə start verilib. Təhsil Nazirliyinin təşkilatçılığı ilə yerli STEAM təlimçiləri və Beynəlxalq təcrübəyə malik mütəxəssislər tərəfindən 325 müəllimə təlimlər keçirilib. Eyni zamanda STEAM dərslərinin tədrisi üçün nazirlik tərəfindən qısa müddətdə 7 kitab çap olunub, müəllim və şagirdlərin istifadəsinə verilib.

Rəhman Məmmədov STEAM təhsilinin əhəmiyyətindən danışaraq bildirib ki, hədəf şagirdlərdə yüksək mütəşəkkil düşüncəni inkişaf etdirmək, əldə olunan biliklər vasitəsilə layihələr hazırlamaq və fənlərin daha dərindən mənimsədilməsinə nail olmaqdır. Artıq şagirdlərimiz yaradılan imkanlardan səmərəli istifadə edərək muxtar respublika və ölkə səviyyəli yarışlarda öz layihələri ilə iştirak edir və uğurlu nəticələr qazanırlar. VII sinif şagirdlərindən ibarət komandalarımız may ayında Bakı şəhərində keçiriləcək "Teknofest-2022" festivalında iştirak üçün layihələr hazırlamağa başlayıblar.

Təhsil naziri keçirilən müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirib, müsabiqə iştirakçılarına uğurlar arzulayıb.

Sonra məktəbli komandaların "Mancanaq robot" müsabiqəsi üçün microbit modulundan hazırladıqları robotlara baxış olub, şagirdlər robot layihələri haqqında məlumat veriblər.

Müsabiqənin ümumi qaydalarına görə hər komanda robotu ilə 3 dəfə yarışıb. Yarışda hər komandaya 10 ədəd top mərmisi verilib, 6 dəqiqə müddətində daha çox top mərmisini qutuya atan komanda qalib olub. Bərabər olan komandalara isə 5 top və 2 dəqiqə əlavə vaxt verilib.

Yarışın 3 mərhələsində uğur qazanan Naxçıvan Dövlət Texniki Kolleci, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan şəhər, Ordubad və Culfa rayon komandaları medal və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Payız semestrinin imtahan sessiyası uğurla davam edir

Naxçıvan Dövlət Universitetində 2021-2022-ci il payız semestrində imtahanlar gün ərzində 90-110 olmaqla yazılı, şifahi və test üsulu ilə həyata keçirilib. Nəzərdə tutulan 1771 imtahandan 1575-i keçirilib və 25596 tələbənin iştirakı proqnozlaşdırılan imtahanlarda bu günədək 22956 tələbə imtahan verib. Tələbələr elektron qaydada təşkil edilən imtahanlarla yanaşı, ənənəvi-yazılı və şifahi qaydada da imtahan veriblər. Qeyd edək ki, hər gün keçirilən yazılı imtahanlar üçün də xüsusi nəzarət sistemi tətbiq olunan otaq müəyyənləşdirilib. Bundan başqa, xüsusi qabiliyyət tələb edən ixtisaslarda imtahanların şifahi qaydada keçirilməsi nəzərdə tutulub. Şifahi imtahanlar müvafiq kafedralar tərəfindən razılaşdırılmış qaydada fakültə daxilində keçirilib. Universitetin rektoru, dosent Elbrus İsayev keçirilən imtahanların gedişi prosesi ilə tanış olub, tələbələrə uğurlar arzulayıb, imtahan semestrinin təşkili ilə bağlı onların arzu və təkliflərini öyrənib. Elektron imtahanlar bu semestr 13 elektron və 26 yazılı olmaqla kamera ilə təchiz edilmiş otaqlarda aparılıb. Builki imtahan prosesində ali təhsil ocağının magistrantları da imtahanlarda nəzarətçi qismində çıxış ediblər. İmtahanlara ümumi nəzarət etmək üçün 9 nəfərdən ibarət imtahan qərargahı, şikayətlərə baxılması və obyektiv həlli məqsədilə isə apelyasiya komissiyası da yaradılıb.



Qeyd edək ki, bu günədək elektron test üsulu ilə keçirilən imtahanlar obyektivlik və şəffaflığın gözlənilməsi, tələbələrin biliklərini operativ şəkildə ortaya qoyması, obyektiv qiymətləndirmə baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında quraşdırılan veb-kameralar şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 sualı cavablandırır, nəzarətçilər tələbənin imtahanı başlamasını və bitirdiyini təsdiqlədikdən sonra tələbə imtahan nəticələri ilə bağlı dərhal məlumatı əldə edə bilir. Hər test sualı üçün 1 bal, yazılı imtahan üçün 10 ballıq qiymətləndirilmə tətbiq edilir.Yazılı imtahanlarda isə tələbə hər biletdə 5 sual cavablandırmaqla maksimum 50 balla qiymətləndirilir. Məlumat üçün onu da bildirək ki, bu il ilk dəfə olaraq açıqtipli imtahan keçirilib. "Kazus" adlanan bu imtahanlar Hüquqşünaslıq ixtisasının tələbələri üçün nəzərdə tutulub. Tələbələrə cinayət və mülki sahələr üzrə kazus xarakterli suallar hazırlanıb, tələbələrin 3 saat ərzində qanunun məzmununu açmaq və onun izahını vermək, kazusları həll etməklə qoyulmuş məsələlərə düzgün qiymət vermək bacarıqlarına xüsusi diqqət yetirilib.

Ali təhsil ocağının artıq bir neçə fakültəsində uğurla həyata keçirilən elektron jurnalın tətbiqi sayəsində tələbənin müvəffəqiyyət və keyfiyyət faizləri avtomatik olaraq sistemə inteqrasiya olunur və bu imtahan nəticələrinin hesablanmasını sürətləndirir. Tələbələr universitetin elektron səhifəsində yerləşdirilən linkdən istifadə etməklə imtahan nəticələrini öyrənməklə bərabər universitetin saytında e-cədvəl bölməsinə daxil olmaqla dərs, kollokvium, imtahan cədvəlləri, sualları və imtahan nəticələri barədə məlumat toplaya bilirlər. Elektron imtahanlarda hər müəllim minimum 700 sayda test sualı verib. 1000 və daha artıq olan imtahan sualları tələbələr üçün variantlı şəkildə əvvəlcədən açıqlanıb. Yazılı suallar isə tədris ilinin əvvəlindən LMS sisteminə yüklənib.

Qeyd edək ki, imtahanların ən böyük üstünlüyü isə ondan ibarətdir ki, ilk dəfə olaraq payız semestrinin imtahan sessiyasından əvvəl tələbələrin imtahanaqədərki balları şəxsi kabinetlərinə yüklənilib, universitetdə tətbiq olunan elektron jurnal və imtahan sisteminin imkanları genişləndirilib, semestrin əvvəlində imtahanların aparılması ilə bağlı tələbələrə əvvəlcədən məlumatlar verilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

2022-ci il
"Şuşa ili"dir

# Tariximizin, mədəniyyətimizin rəmzi, möhtəşəm Zəfərimizin şəhəri



***Cəbhə bölgəsində yaşadığım 15 ildə hansı rayonda olsaq da, oradan Şuşanın dağları görünərdi. Ancaq Ağcabədidən, Ağdamdan daha aydın seyr edərdim. Yayda yaşıllığı göz oxşayır, qış düşəndə başı qarla örtülürdü o dağların. Başından duman çəkilmirdi sanki fikirli insanlar kimi idi o əzəmətli dağlar. Həmin vaxt o dağların dumanı torpaq həsrəti ilə alışıbyanan ürəyimizə dolur, gözlərimizdə yaşa dönüb yanaqlarımıza süzülürdü. Həsrət idik gözəl Şuşamıza. Ürəyi Şuşa həsrəti ilə dolu olan, şuşalı olub Şuşasız dünyaya gələnlərlə, köçənlərlə yaşadığım o illərdə hərdən bir nağıl eşidirdim bu gözəl şəhər haqqında. Biri gülündən, çiçəyindən, uçulan sarayından, digəri isə dağından, dərəsindən, varından, dövlətindən, Vaqifindən, Xan qızından danışırdı. Hər gün ümidli baxışlar gün çıxandan batana kimi o dağlara dikilirdi. Hər kəs inanırdı ki, o dağlar bir gün haray qoparacaq, dağlarımızın dağ kimi oğulları Şuşanı azad edəcək, öz sahiblərini gözləyən yollar bizi ora aparacaq.***

Ümidlər, xəyallar həqiqətə çevrildi. Xalqımızın ümummilli liderinin ***"Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək"*** kəlamının deyildiyi vaxtdan cəmi 18 il ötsə də, zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu.

İllərdir, xəyalı ilə yaşadığımız həmin gün gəldi – tariximizin şanlı səhifələri igid Azərbaycan əsgərinin qəhrəmanlığı, şücaəti, qanı ilə yenidən yazıldı. ***"Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir"***, – deyən ulu öndər Heydər Əliyevin və bütün azərbaycanlıların arzusu çin oldu.

Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. 1905-1907-ci illərdə şəhər ermənilər tərəfindən hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi daşnaklar tərəfindən dağıdılıb. Məlum işğal faktı isə 1992-ci ilin mayında oldu.

İllər sonra Şuşanın düşmən işğalından azad edilməsi müharibənin həlledici anı oldu. Qarabağ zəfərinə gedən yol ilmə-ilmə toxundu. İlk olaraq iqtisadiyyat gücləndirildi, sonra ordu xüsusi qayğı ilə əhatə edildi. Dünyanın müxtəlif ölkələrinə təlimlərə göndərilən hərbçilər xüsusi kurs keçir, bu sənətin sirlərinə yiyələnirdilər. Torpaqlarımız sülh yolu ilə mümkün olmasa, hərb yolu ilə azad edilməli idi. Amma biz xalq olaraq meydanda, demək olar ki, tək idik. Əsrlərboyu xalqımıza qarşı etnik təmizləmə aparan ermənilərin bu hərəkətlərinə, 30 ildir, tarixi torpaqlarımızı işğalda saxlamalarına nədənsə göz yuman ermənipərəst ölkələr haqqı tapdalanan azərbaycanlıları müdafiə etmirdilər. Amma onlar bir şeyi unudurdular. Unudurdular ki, bu xalqın ulu öndər Heydər Əliyev kimi lideri və bu dahi şəxsiyyətin yolunun davamçısı cənab İlham Əliyev kimi dövlət başçısı var. Bəli, Qarabağ problemi kimi ağır bir yükü olan bir ölkənin Prezidenti, Ali Baş Komandanı olmaq asan deyildi. İllərlə ulu öndər kimi siyasət dahisindən dərs alan dövlətimizin başçısı hələ hakimiyyətə gəldiyi ilk gün Qarabağı, Şuşanı azad edəcəyinə and içmişdi. Və belə də oldu... O, siyasi gücü, dərin savadı, dünyagörüşü ilə dünya səviyyəli bir çox rəsmi görüşlərdə düşmən dövlətin baş nazirinə tarix dərsi keçdi. Müharibənin ilk günündən sonuna kimi yuxusuz gecələr keçirən Ali Baş Komandan öz ordusu, xalqı ilə bir olaraq dəmir yumruğa dönüb düşmənin başına şimşək kimi çaxıb onu darmadağın etdi. Böyük Zəfərin ilk günündən hamının ürəyi cəbhədə Azərbaycan əsgəri ilə birlikdə döyünürdü. Xalqının sevgisindən güc alan Azərbaycan əsgəri addım-addım, dağ-dərə bilmədən, öz canını heçə sayaraq qəhrəmanlığı ilə dünyanı özünə heyran etdi. Ordumuzun Şuşa əməliyyatı ilə təkcə Vətən həsrəti bitmədi, dünya hərb tarixinin ən şanlı səhifələri yazıldı həmin günlərdə. Tarixdə bir çox ilklər yaşandı. Azərbaycan əsgəri türkün gücünü, Vətən üçün gözünü belə, qırpmadan ölümə necə gedildiyini dünyaya nümayiş etdirdi. 44 günlük müharibədə bütün dünyanın gözü Qarabağda idi. Həmin günlərdə dövlətimizin başçısı deyirdi: ***"Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".***

Bu sözlərin deyildiyi vaxtlarda heç kimin ağlına belə gəlməzdi ki, dağların zirvəsində yerləşən bu şəhər tarixdə bənzərinə rast gəlinməyən bir əməliyyatla azad edilə bilər. Lakin əfsanə reallığa çevrildi – müqəddəs torpağı azad etmək uğrunda canından keçən igid oğullarımız Şuşanı düşməndən xilas etdilər.

Dünya mətbuatı Şuşanın azad olunması barədə diqqəti cəlb edən xəbərlər dərc edirdi. "Le Monde" yazırdı: *"Ermənilərin çox sayda ölü və yaralıları var, onları Xankəndiyə daşıyırlar. Erməni əsgərləri Xankəndiyə gedən yolda snayperlər və artilleriya hücumlarına məruz qalırlar. Xankəndini Şuşa vasitəsilə Laçın dəhlizi və Ermənistanla birləşdirən əsas yol noyabrın 4-də bağlanıb. "Azərbaycanlılar Şuşaya çatdı, şəhər döyüşü gedir" yaralı erməni əsgər deyir. Təcili yardım maşınları dayanmadan işləyir, əsgərlər üst-üstə yığılır, bəzi yerlərdə üzbəüz döyüşlər gedir".*

Bu məqalə yayımlananda Şuşanın azad olunduğu elan edilməmişdi, şəhər döyüşləri hələ də davam edirdi. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanı ağır artilleriya olmadan, tapança və bıçaqdan istifadə etməklə, əlbəyaxa döyüşlə azad edirdi. Bəli, Şuşaya yeganə olan girişdən yox, sıldırım qayalıqlardan daxil olan Azərbaycan əsgəri döyüşdə ancaq yüngül silahlarla – bıçaq, tapança, avtomatla döyüşür. Yaralılar və şəhidlərimiz olsa da, döyüşçülərimiz onları çiyinlərində daşıyaraq sıldırım qayalarla şəhərə qalxıb. Bu vəziyyətdə, hətta günlərlə döyüş olub.

Yəhudi jurnalist Pyotr Lyukimson yazıb: *"İsrail ordusu indiyə qədər bu əməliyyatın təfərrüatını bilmir. İsrail Müdafiə Nazirliyindəki yüksəkrütbəli mənbə mənə belə dedi: Şuşa aşağıdan yuxarıya doğru azad olundu və bu, müasir hərb elminin bütün prinsiplərinə ziddir".*

Bu əməliyyatı tarixi Qavqamela döyüşü, Nadir şah Əfşarın çar Rusiyasına qarşı hərbi əməliyyatları, eləcə də Malazgirt, Mohaç, Çanaqqala döyüşləri ilə müqayisə edənlər də var. Döyüşlərdə "Aypara" ("Qurd qapanı") taktikasından da istifadə olunub. Bu taktika qədim türk xalqlarının döyüş taktikasıdır. Yaxın keçmişimizdə qardaş Türkiyə terrorçulara qarşı apardığı əməliyyatlarda bu taktikadan istifadə etmiş və bu əməliyyatı "Zeytun budağı" əməliyyatı adlandırmışdır. Hərbi ekspertlər bu taktikanı belə izah edirlər: – Hücum planı iki mərhələdən ibarət olur – saxta gediş və pusqu. Ordunun bir hissəsi düşmənin gözlədiyi yerdə hücum görüntüsü yaradır, digər qrupu gizli şəkildə düşmənin arxasına keçərək pusqu qurur. Şahidlərin dedikləri Şuşa döyüşündə məhz bu taktikadan istifadə edildiyi fikrini gücləndirir: şəhərə qalxan yeganə yola hərbi qüvvə və zirehli texnika yığılıb və ermənilər hücumun oradan olacağını gözləyiblər. Lakin əsas qüvvələr sıldırım qayaları dırmaşaraq şəhərə daxil olub və üzbəüz döyüşlə düşmən məhv edilib.

Ermənistanda hələ də Şuşa əməliyyatının təsirini azaltmaq cəhdləri davam edir.

Tarix bundan sonra Ermənistanın daha çox yalanını ifşa edəcək, çünki məğlublar bir-birini ittiham etməyi sevirlər və mübahisələr gerçəkləri üzə çıxarır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edəndə deyib: ***"Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub. Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq".*** Şuşanın azad edilməsi, müharibənin dönüşü düşmənin diz çökməsi oldu. Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında tarixi missiyanı başa çatdırdı – Şuşa azad oldu və düşmən təslimiyyət aktı imzaladı. Bu gün isə Azərbaycan ikinci missiyanı– yenidənqurma və bərpa missiyasını həyata keçirir. Şuşanın bərpa olunmasına xüsusi diqqət edilir. 2022-ci ili "Şuşa ili" elan edən Prezident cənab İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində deyib: ***"Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa ili" elan edirəm".***

Ötən il regionlara ilk səfəri Şuşaya edən Ali baş Komandan Şuşaya şanlı Zəfərin Müzəffər Komandiri kimi gəldi. Hər gəlişi bir yenilik, bir quruculuq ərməğan etdi bu gözəl şəhərə. Vandal ermənilərin uçurub, dağıdıb tövləyə çevirdiyi məscidlərə ayaqyalın girib dünyada özünü İslam dövləti adlandırıb, amma müqəddəs ocaqlara edilən hücumlara, hətta dində murdar sayılan heyvanların saxlanılmasına göz yuman bəzi rəhbərlərə dərs verdi.

Ötən il Mədəniyyət Paytaxtı elan edilən Şuşa bir çox mədəni tədbirlərə ev sahibliyi etdi. İllərdir, "Güllələnmiş heykəllər" adlandırılan Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərinin Prezident tərəfindən Bakıdan Şuşaya gətirilməsi, əvvəlki yerlərinə qoyulması qələbənin daha bir təntənəsi oldu. Novruz bayramı ərəfəsində bu qədim şəhərdə illər sonra bayram tonqalı qalandı. O yanan tonqal illərdir, Şuşasız üşüyən qəlbləri isitdi. "Xarıbülbül" musiqi festivalı, Vaqif poeziya günləri şanlı Qələbənin rəmzi, qələbə və qalibiyyət bayramı idi.

Ötən il Şuşa həm də Azərbaycan ilə Türkiyənin 100 illik tarixi birliyinin ifadəsinə çevrilən və tarixə "Şuşa Bəyannaməsi" kimi düşən mühüm bir strateji sənədin imzalandığı məkan kimi yaddaşlarda qaldı. Belə ki, 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı. Həmin sənəd 100 il bundan öncə imzalanan Qars müqaviləsinin davamı idi. Azərbaycan üçün çox önəmli bir tarixdə – Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra imzalanan Bəyannamə həm də böyük rəmzi məna daşıyırdı. Bu məna həm də sarsılmaz birliyimizi ifadə edirdi. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan qardaş Türkiyə dövləti 100 il sonra – 2021-ci ildə Şuşa Bəyannaməsi ilə Qarabağın təhlükəsizliyinin də qarantına çevrildi. Həmin gün Cıdır düzündə Qarabağ atları şahə qalxdı. "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya izləyənləri valeh etdi.




Növbəti təntənəyə isə Şuşa dekabrın 24-də şahidlik etdi. Həmin gün Prezident, Müzəffər Ali Baş Komandan 60 illik yubileyini ailəsi ilə birlikdə Şuşada qeyd etdi. Dövlətimizin başçısı Şuşanın məşhur Cıdır düzündə çıxışında deyib: ***"...Hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada – Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm.***

***Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilməyib. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik".***

Azərbaycan xalqı bir olub torpaqlarını azad etdiyi kimi, onu gülüstana çevirməyi də bacarır. Necə ki bu gün Şuşa şəhərinin baş planı əsasında böyük işlər görülür. Şəhərin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanın Mədəniyyət Paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Ölkə başçısı çıxışlarının birində deyib: ***"Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur – üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar".***

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Əlbəttə ki, baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur. Şuşada ümumi sahəsi 46,765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq və məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən artıq 1-ci məhəllənin təməli qoyulub. "Qarabağ" hotelinin, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün, muzey-məqbərə kompleksinin, Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub. Şuşada "Hotel və konfrans mərkəzi"nin və yeni yaşayış massivinin təməli atılıb.

Ölkə başçısının Şuşaya elə bir səfəri olmayıb ki, həmin gün hansısa tarixi abidənin açılışı və ya təməlqoyma mərasimi olmasın. Hər gəlişi ilə doğma şəhərə can verən Ali Baş Komandan ***"Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik"*** sözləri ilə bir daha bəyan etdi ki, Qarabağ Azərbaycandır!

*Gözəl Şuşa, cənnət Şuşa bir zamanlar uzaq rayonların cəbhə kəndlərindən uca dağlarını seyr edir, "İşğaldan bir il daha keçdi. Biz sənsiz buz tutduq, sən bizsiz saralıb soldun. Axı bu həsrət nə vaxt bitəcək. Şuşadakı evin açarları sandıqda qalmaqdan pas tutdu", – deyən insanları dinlədim. İşğalın 29-cu ilində "Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur", Vətən müharibəsi başlayanda "Bu yol Şuşa yoludur", Qələbədən sonra "Əziz Şuşa, biz qayıtmışıq", "Azərbaycanlılar bundan sonra Şuşada əbədi yaşayacaqlar" başlıqlı məqalələr yazıb Şuşanın son işğal və ilk qələbə məqaləsində imzam olduğu üçün qürurlanmışdım. Bu gün isə "Şuşa ili"ndə gündən-günə gözəlləşən cənnət şəhər haqqında ilk məqaləmi qələmə alaraq illərlə uzaqdan seyr etdiyim, nağıllarını, əfsanələrini dinlədiyim 270 yaşlı gözəl Şuşamın, Vətənimin almaz qaşının hüsnünü görməyə tələsirəm.Bu arzuma çatacağıma heç bir şübhəm yoxdur – ən azından yanvar ayının 24-də doğma Şuşaya ilk marşrut avtobusu yola düşdü...*

**Ramiyyə ƏKBƏROVA**

*Rabitə sistemində yeni texnologiyaların tətbiqi, internet şəbəkəsinin genişlənməsi günümüzün tələbləri sırasındadır. Bu məqsədlə Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da telekommunikasiya şəbəkəsinin inkişafına dair layihələr icra olunur.*

## Rabitə xidmətinin keyfiyyəti yüksəldilir



Şərur rayonunda da əhalinin internet xidmətlərinə olan tələbatının təmin edilməsi, eyni zamanda keyfiyyətli və çoxçeşidli rabitə xidmətlərinin təşkili məqsədilə bir sıra işlər görülməkdədir. Belə ki, rayonun Xanlıqlar, Şəhriyar, Mahmudkənd, Zeyvə, Tumaslı, Qarxun, Axura, Tənənəm, Püsyan, Ələkli, Çərçiboğan və Çomaxtur kəndlərində fəaliyyət göstərən yeni nəsil HUAWEİ NGN tipli avtomat telefon stansiyalarına, ümumilikdə, 14 ədəd 32 yerlik internet plataları əlavə edilib ki, bu da nəticə etibarı ilə 448 nəfər internet istifadəçisinin internetə olan tələbatının ödənilməsinə şərait yaranıb.

Bunlarla yanaşı, tələbata uyğun olaraq Babək rayonunun bir sıra kəndlərində, Şahbuz rayonunun Daylaqlı və Culfa rayonunun Teyvaz kəndlərində də mövcud avtomat telefon stansiyalarına müxtəliftutumlu internet platalarının artırılması da nəzərdə tutulub.

Qeyd edək ki, ötən il ərzində də Şərur rayonunda əhalinin internet xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə mövcud avtomat telefon stansiyalarına 47 ədəd müxtəliftutumlu internet platası artırılıb.

* * *



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən Ordubad Rayon Rabitə İdarəsinin müvafiq peşə ixtisasına malik olmayan əməkdaşları Ordubad Texniki Peşə və Sürücülük Məktəbində ixtisasartırma kurslarına cəlb ediliblər.

Kabel lehimləyici və rabitə montyoru üzrə ixtisasartırma kurslarında təhsil alan müdavimlərə rabitə avadanlıqlarının əsasları, paylayıcı şkaf və kabel qurğularının montajı, elektrotexnika, əməyin mühafizəsi, peşə etikası barədə dərslər tədris olunur.

Kursun tədris müddəti 2 aydır və hazırda bu kursda 11 müdavim təhsil alır. Kursu bitirən hər bir iştirakçı müvafiq hüquqi sənədlə (sertifikat) təmin olunacaqdır.

Qeyd edək ki, 2021-ci il ərzində Naxçıvan şəhəri, Şərur və Babək rayon Rabitə idarələri olmaqla, ümumilikdə, 57 rabitə əməkdaşı ixtisasartırma kurslarına cəlb olunub, kursu müvəffəqiyyətlə bitirən əməkdaşlara sertifikatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## *“Şərq qapısı”qəzetinin nəşri tarixi və inkişaf yolu” kitabı nəşr olunub*

*1921-ci ildən günümüzədək məsuliyyətli və əzmkar inkişaf yolu keçmiş “Şərq qapısı” qəzetinin 100 yaşı muxtar respublikada geniş qeyd olunmuşdur.*




Muxtar respublikada həyatın bütün sahələrində müşahidə edilən qaygıdan yerli mətbuat da öz nəsibini almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamının icrası istiqamətində görülən tədbirlər çərçivəsində AMEA Naxçıvan Bölməsində muxtar respublikanın ali təhsil müəssisələri, Naxçıvan Mətbuat Şurası və qəzetin redaksiya heyətinin iştirakı ilə “Şərq qapısı” qəzeti və Naxçıvanda mətbuatın inkişafı” mövzusunda elmi konfrans keçirilmiş, bölmənin əməkdaşları ölkə və muxtar respublika mətbuatında qəzetin birəsrlik fəaliyyəti dövründə həyata keçirdiyi səmərəli fəaliyyəti, ictimai fikrin formalaşmasında oynadığı mühüm rolla bağlı müxtəlif mövzulu məqalələr dərc etdirmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən “Şərq qapısı” qəzetinin nəşri tarixi və inkişaf yolu” kitabının “Şərq qapısı” ilə AMEA Naxçıvan Bölməsinin birlikdə nəşrə hazırlanması da bu silsilə tədbirlərin davamıdır.

Kitabın ilk səhifələrində ümummilli lider Heydər Əliyevin qəzet haqqında fikirləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” Sərəncamı və təsdiq olunmuş “Tədbirlər Planı”nın mətnləri verilmişdir. Ulu öndərin: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** dəyərli fikri 100 yaşlı söz məbədinin daşıdığı tarixi missiyadan, gənc nəslin vətənpərvər ruhda tərbiyəsindəki mühüm rolundan xəbər verir. Məramına daim sadiq qalan “Şərq qapısı” bu şərəfli missiyanı hələ sovet dönəmindən məsuliyyətlə yerinə yetirmiş, göstərilən təzyiqlərə baxmayaraq, uğurla fəaliyyətinə davam etmişdir.

AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin kitaba yazdığı “Ön söz” qəzetin daşıdığı tarixi önəmi daha dərindən dərk etməyə imkan verir. Burada Naxçıvan mətbuatının, maarifçilərin fəaliyyətinə nəzər salınmış, qəzetin 100 illik fəaliyyəti əhatəli şərh olunmuşdur. Vurğulanır ki, Qanlı Yanvar faciəsinə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nin tərkibindən çıxması ilə bağlı tarixi qərarın “Şərq qapısı”nda dərc olunması, onun 8 nömrəsinin “Birlik və demokratiya uğrunda!” şüarı ilə müstəqil qəzet kimi çap olunması bu mətbu orqanın hələ sovet dövründə ölkə mətbuatında yerinə yetirdiyi tarixi missiyasının bir hissəsi və əsl vətənpərvərlik nümunəsidir.

Yeni kitab AMEA Naxçıvan Bölməsinin və “Şərq qapısı” qəzeti redaksiyası əməkdaşlarının qəzetin 100 illik fəaliyyəti, bu mətbu orqanda tariximiz, milli ordu quruculuğu, tarix-mədəniyyət abidələri haqqında, ana dili məsələlərinin, Naxçıvan ədəbi mühiti, folklor, xalq sənətinin təbliğinin, media siyasətinin, mədəniyyət, elm və təhsil sahələrində baş verən yeniliklərin, eləcə də muxtar respublikanın sosial-iqtisadi inkişafının əksi məsələləri ilə bağlı araşdırmalarının yer aldığı dəyərli mənbədir. Burada “Şərq qapısı”nın Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına verdiyi töhfələrdən, muxtar respublikada jurnalistikanın inkişafındakı, cəmiyyətin informasiyaya olan tələbatının dolğun ödənilməsindəki mühüm rolundan bəhs edən məqalələr toplanıb. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən 416 səhifəlik kitab muxtar respublikanın keçdiyi tarixi inkişaf yolunun öyrənilməsi, mətbuat tariximizin araşdırılması baxımından olduqca mühüm elmi əhəmiyyətə malikdir.

Kitabda yer alan məqalələrin hər biri qəzetin ölkə mətbuatındakı mühüm funksiyasını öyrənməklə yanaşı, müxtəlif illərdə dərc olunmuş nömrələrinin tədqiqi və təhlili baxımından da əhəmiyyətlidir. “Şərq qapısı” qəzetinin nəşri tarixi və inkişaf yolu” kitabı dəyərli elmi-tədqiqat nəşri olmaqla yanaşı, həm də qəzetin 100 illik yubileyinə qiymətli töhfədir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## 2021-ci il ərzində dövlət qeydiyyatına alınmış daşınmaz əmlakların sayı 20,6 faiz artıb




Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən tətbiq edilən yeniliklər, göstərilən xidmətlərin müasirləşdirilməsi daşınmaz əmlakın dövlət qeydiyyatını sadələşdirib. Ötən illə müqayisədə dövlət reyestrində qeydiyyata alınan daşınmaz əmlak sayı 20,6 faiz artıb.

2021-ci il ərzində Naxçıvan şəhəri üzrə 3216, Şərur rayonu üzrə 1346, Babək rayonu üzrə 1247, Ordubad rayonu üzrə 487, Culfa rayonu üzrə 525, Şahbuz rayonu üzrə 373, Kəngərli rayonu üzrə 231, Sədərək rayonu üzrə 78, ümumilikdə, muxtar respublika üzrə 7503 daşınmaz əmlak obyekti qeydiyyata alınıb.

Həmin obyektlər bölmələr üzrə 2944 torpaq sahəsi, 1574 mənzil, 2762 fərdi yaşayış və bağ evi, 83 qeyri-yaşayış binası, 110 qeyri-yaşayış sahəsi, 30 əmlak kompleksi kimi müəssisədən ibarət olub. 2020-ci illə müqayisədə mənzillərin qeydiyyat sayı 54,5 faiz, fərdi yaşayış evlərinin qeydiyyat sayı isə 31,8 faiz yüksəlib.

Daxil olmuş müraciətlər əsasında 2223 əmlaka dair texniki pasport, 3470 torpaq sahəsinə dair plan-ölçü, ümumilikdə, 5693 texniki sənəd tərtib edilib ki, bu da əvvəlki illə müqayisədə 15,3 faiz çoxdur. Hüquqi və fiziki şəxslərə daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair 6724 arayış verilib. 2020-ci illə müqayisədə verilən arayışların sayı 30,5 faiz artıb.

Ötən il ərzində 10 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 84 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 51 ailə təsərrüfatının icarəsinə verilmiş 8,15 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Dövlət qulluğuna qəbulun müsahibə mərhələsi keçirilir



Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin müsahibə mərhələsi keçirilir. Müsahibəyə hazırlıq məqsədilə Dövlət İmtahan Mərkəzində 18 müstəqil ekspert və 16 dövlət orqanını təmsil edən nümayəndələrin iştirakı ilə seminar keçirilib.

Qeyd edək ki, 22 dövlət orqanı tərəfindən müsabiqəyə çıxarılan 169 vakant vəzifənin tutulması üçün 696 namizəd sənəd təqdim edib. Test mərhələsində iştirak edən 606 namizəddən 267-si müvafiq keçid balını toplayıb.

Müsahibə mərhələsinə, ümumilikdə, 253 namizəd qeydiyyatdan keçib. Həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 8 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunub. Ən sıx müsabiqə vəziyyəti “ASAN xidmət” Mərkəzinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun aparıcı məsləhətçisi vəzifəsi üzrə yaranıb – 64 namizəd. Eyni sektorda böyük məsləhətçi vəzifəsinin tutulması üçün 20 namizəd, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsinin Kəngərli rayonu üzrə məsləhətçisi vəzifəsinin tutulması üçün isə 15 namizəd mübarizə aparacaq. İlk dəfə keçirilən dövlət teleradio və mətbuat orqanlarında işə qəbul üçün müxtəlif vəzifələr uğrunda 7 namizəd müsahibə mərhələsində iştirak edəcək.

Dövlət orqanları üzrə müsahibələr mərkəzin rəsmi internet portalında yerləşdirilmiş qrafikə uyğun olaraq fevralın 9-na qədər davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## İlin yekunları müzakirə edilib

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı idarə heyətinin yığıncağı keçirilmişdir. Yığıncaqda təşkilatın sədri Mirməcid Seyidov məruzə ilə çıxış edərək ötən il görülən işlər barədə danışmışdır. Qeyd olunmuşdur ki, 2020-ci ildə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının aidiyyəti təşkilatlarla əlaqələri daha da möhkəmlənmiş, müxtəlif mövzularda silsilə tədbirlər keçirilmişdir. Belə ki, hesabat ilində təşkilat, onun şəhər və rayon şöbələri tərəfindən 40-dan artıq tədbir keçirilmiş kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edilmişdir.

Aid qurumlarla birlikdə müharibə iştirakçılarının, şəhidlərimizin qəhrəmanlıqlarla dolu döyüş yolunun təbliği və gənclərin vətənpərvərlik tərbiyəsinin formalaşması məqsədilə onların muxtar respublikanın şəhid ailələri ilə görüşləri reallaşdırılmış, müharibə iştirakçılarının keçirilən tədbirlərdə iştirakı təmin olunmuş, videosüjetlər hazırlanmışdır.

Hesabat dövrü ərzində müxtəlif kateqoriyalar üzrə müharibə iştirakçıları və şəhid ailələrinin qeydiyyatının aparılması işi davam etdirilmişdir. Əsasən, Vətən müharibəsində şəhid olan, xəsarət almış və müharibə veteranı adı qazanan muxtar diyarımızdan olan müharibə iştirakçıları haqqında məlumatların toplanması işi aparılır. Şəhidlərin, o cümlədən muxtar respublikamızdan olan milli qəhrəmanların xatirə günlərinin keçirilməsi təmin olunmuşdur.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının şəhər və rayon şöbələrinin sədrləri çıxış edərək ötən il görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Maliyyə-mühasibat işləri ilə bağlı təlim



Maliyyə Tədris Mərkəzində keçirilən növbəti təlimə Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Mənzil İstismar idarələri, Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsi, “Naxçıvan Lift Xidməti” publik hüquqi şəxs, Fəxri Xiyaban İdarəsi və digər təşkilatlarda çalışan 12 nəfər mütəxəssis cəlb olunub.

Mərkəzin direktoru, dosent Mehriban İmanova keçirilən təlimlərin məqsədinin beynəlxalq mühasibat uçotu standartlarına əsasən maliyyə-mühasibat işinin aparılması, bu sahədə mütəxəssislərin biliklərinin artırılmasından ibarət olduğunu bildirib.

Təlimin ilk günü “Cahan AVM” Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşı Nurlan Vəliyev “Təsərrüfathesablı müəssisələrdə mühasibat uçotunun təşkilinin nəzəri əsasları” modulu ətrafında danışıb.

Növbəti gün “Təsərrüfathesablı müəssisələrdə mühasibat uçotunun təşkilinin praktik izahı” moduluna uyğun olaraq məzuniyyət və onun əmsallaşdırılması, ezamiyyənin hesablanması və digər əməliyyatlar üzrə praktik iş yerinə yetirilib,suallar cavablandırılıb.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Qasımov Rüstəm Şıxı oğluna məxsus olan 0300516902 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 78